1_Layout 1 27.06.2014 13:47 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

№ 12 (430)

30 iyun 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

# ƏSGƏR

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARADILMASININ 96-CI İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İRİMİQYASLI BİRGƏ ƏMƏLİYYAT-TAKTİKİ TƏLİMİ KEÇİRİLMİŞDİR

*Bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər və bugünkü təlimlər bunu bir daha nümayiş etdirmişdir. Ordumuzun uğurlu inkişafı üçün həm maddi-texniki təchizat davam etdiriləcək, eyni zamanda, Silahlı Qüvvələrdə aparılan islahatlar dərinləşəcəkdir.*

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

İyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyi, Daxili İşlər Naziliyinin Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri keçirilmişdir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev birgə əməliyyat-taktiki təlimləri izləmişdir.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.

General-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə birgə əməliyyat-taktiki təlimdə nümayiş etdiriləcək təlim yerlərinin ümumi sxemi barədə məlumat verdi.

Sonra dövlətimizin başçısına Azərbaycan Ordusunun yeni, ən müasir standartlara cavab verən hərbi texnika, silah və sursatları təqdim olundu.

Azərbaycan Silahlı Qüvvələrinin texnika, silah və sursatlarına baxışdan sonra yeni silah sistemlərinin nümunəvi atışlarına başlandı.

Dövlətimizin başçısı əvvəlcə Hərbi Hava Qüvvələrimizin yeni silahlarından olan "Buk-MB" zenit-raket kompleksinin atış prosesini izlədi.

Bu kompleks orta mənzilli zenit-raket sistemlərinə aiddir, hərəkətli qoşun qruplaşmalarını, mühüm hərbi və mülki obyektləri, yaxud belə obyektlər qrupunu hava zərbələrindən müdafiə etmək üçün təyin edilmişdir.

Sonra Ali Baş Komandan İlham Əliyev artilleriya sistemlərinin nümunəvi atışlarına baxdı.

Atışlara 82 millimetrlik "2B-24" minaatan, 120 millimetrlik daşınan "SANİ" minaatan və 152 millimetrlik "Msta-S" özüyeriyən haubitsa batareyaları cəlb edilmişdi.

Ali Baş Komandan İlham Əliyev sonra 306 millimetrlik "Exstra" yüksək dəqiqlikli raket kompleksinin atışını da izlədi.





Dövlətimizin başçısına məlumat verildi ki, kompleksin start mövqeyi onun üçün təyin edilmiş hədəfdən 42 kilometr uzaqlıqda yerləşir. Qurğunun maksimal atış məsafəsi 150 kilometrdir.

Ali Baş Komandana "Spike" tank əleyhinə idarəolunan raket kompleksinin imkanları da nümayiş etdirildi.

"BMP-3" piyadaların döyüş maşını və "T-90" tanklarından təşkil edilmiş iki zirehli qrupun nümunəvi atışı da son illərdə Azərbaycanda ordu quruculuğu ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsinin daha bir əyani nümunəsi oldu.

Sonra Ali Baş Komandan İlham Əliyev növbəti təlim nöqtəsində mina sahəsindən partlayış üsulu ilə keçidin açılması prosesini izlədi. Qeyd edək ki, hücum əməliyyatlarında həmlə edən canlı qüvvə və döyüş texnikasının minalanmış sahədən tez və itkisiz keçidinin təmin olunması üçün partlayış üsulu ilə keçidaçma ən səmərəli üsuldur. Təlim zamanı nümayiş etdirilən "POMİNS-2" keçidaçma qurğusu piyada əleyhinə minalanmış sahələrdən keçidlərin açılması üçün nəzərdə tutulmuş müasir mühəndis-silahlanma vasitəsidir.

Yeni silah sistemlərinin nümunəvi atışları başa çatdıqdan sonra birgə əməliyyat-taktiki təlimin fəal mərhələsi başlandı.

Ali Baş Komandan birgə əməliyyat-taktiki təlimin fəal mərhələsi çərçivəsində əvvəlcə sərhəd zastavasının silahlı basqını dəf etməsi, çevik hərəkət bölüyünün sərhədi gücləndirməsi, Silahlı Qüvvələrin birləşmə və hissələrinin sərhədi ötmə məqsədilə müdafiəyə keçməsini əks etdirən birinci epizodu izlədi.

Birgə əməliyyat-taktiki təlimin ikinci epizodunda Daxili Qoşunların desant əleyhinə ehtiyata təyin edilmiş bölməsinin düşmənin taktiki hava desantını təcrid edərək onun məhv etməsi prosesi təqdim olundu.

Birgə təlimin üçüncü epizodunda genişmiqyaslı əks-hücum əməliyyatının keçirilməsi və düşmən qüvvələrinin darmadağın edilməsi əksini tapdı. Əks-hücum əməliyyatında əvvəlcə artilleriya birləşməsi və hissələri hücum əməliyyatının artilleriya hazırlığı dövründə atəş basqını həyata keçirdi. Artilleriya hazırlığı başa çatdıqdan sonra növbə aviasiya zərbələrinə çatdı. Aviasiya zərbələrini "MiQ-29" qırıcı-bombardmançı, "SU-25" hücum təyyarələri və "Mi-24" döyüş helikopterləri yerinə yetirdi. Düşmənə endirilən aviasiya zərbələri nəticəsində onun dərinlikdəki canlı qüvvəsi və döyüş texnikası məhv edilir, artilleriyası susdurulur və idarəetmə məntəqələri sıradan çıxarılır.

Ümumilikdə, təlimlərə 4 min nəfərədək şəxsi heyət, 80 tank, 100-dək zirehli döyüş maşını, 80-ə qədər artilleriya sistemi, 10 döyüş təyyarəsi, 20-dək döyüş və nəqliyyat-döyüş helikopteri cəlb edilmişdi.

Təlimlərdə Azərbaycan Respublikası ərazisinin müdafiəsi və təcavüzkarın məğlubiyyətə uğradılması məqsədilə Silahlı Qüvvələrimizin və başqa silahlı birləşmələrimizin birgə fəaliyyətinin planlaşdırılması və təşkili, həmçinin dövlət sərhədinin mühafizəsi və müdafiəsi, əks-hücuma keçməklə təcavüzkarın əsas qüvvələrinin darmadağın edilməsi ilə bağlı məsələlər diqqət mərkəzində oldu. Təlimlərdə qarşıya bir sıra məqsədlər qoyuldu və tam yerinə yetirildi.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə, hissə və bölmələrinin ərazi müdafiəsi çərçivəsində birgə döyüş tətbiqinin planlaşdırılması və qarşılıqlı əlaqənin təşkili üzrə müxtəlif səviyyələrdə qərargahlar arasında əlaqələndirmənin təmin edilməsi təlimin başlıca hədəflərindən biri idi. Dövlət sərhədinin mühafizəsi, ərazi müdafiəsinin aparılması və əks-hücum əməliyyatının gedişində Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin uzlaşma fəaliyyətinə nail olunması, birləşmə, hissə və bölmələrin döyüş fəaliyyətinin sinxronlaşdırılması da təlimlərdə diqqət mərkəzində idi. Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin birgə döyüş fəaliyyətinin gedişində qoşunların əlaqələndirilmiş şəkildə idarə edilməsi və informasiya mübadiləsinin saxlanması üzrə qərargah fəaliyyətinin məşqinə də xüsusi diqqət yetirildi.

İrimiqyaslı birgə əməliyyat-taktiki təlimlərində qarşıya qoyulan bütün məqsədlərə nail olundu, təlimə cəlb edilən bütün şəxsi heyət yüksək döyüş hazırlığı nümayiş etdirdi.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbçilər qarşısında çıxış edərək təlimlərdə iştirak etmiş bütün şəxsi heyətə göstərdikləri peşəkarlığa görə minnətdarlığını bildirdi.

Bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edən Prezident İlham Əliyev Silahlı Qüvvələrin bütün şəxsi heyətinə yeni uğurlar arzuladı.

Daha sonra dövlətimizin başçısının 2014-cü il 24 iyun tarixli müvafiq Sərəncamına uyğun olaraq bir qrup hərbçiyə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları, eləcə də qiymətli hədiyyələr təqdim olundu.

Sonda xatirə şəkli çəkdirildi.

Bununla da birgə əməliyyat-taktiki təlimlərinin keçirilməsi mərasimi başa çatdı.

**AzərTAc**

## BU SAYIMIZDA:

İCTİMAİ ASAYİŞİN TƏMİN EDİLMƏSİ YÜKSƏK SƏVİYYƏDƏ BAŞA ÇATDIRILMIŞDIR — səhifə 2-də

ALİ HƏRBİ MƏKTƏBDƏ HƏRBİ VƏTƏNPƏRVƏRLİK MÖVZUSUNDA TƏDBİR KEÇİRİLMİŞDİR — səhifə 2-də

BÜTÜN TƏDBİRLƏR NƏZARƏT ALTINDA HƏYATA KEÇİRİLİR — səhifə 3-də

KOMANDİR ƏSGƏRİN ÜRƏYİNƏ NECƏ YOL TAPA BİLƏR? — səhifə 3-də

ŞANLI HƏRB TARİXİMİZ — səhifə 4-də

## "ŞƏXSİ HEYƏTİN YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİK OLMASI DAXİLİ QOŞUNLARDA HƏYATA KEÇİRİLƏN SÜRƏTLİ İNKİŞAFIN MƏNTİQİ NƏTİCƏSİDİR"

***Bu fikirləri Daxili Qoşunlarda səfərdə olmuş Türkiyə Jandarm Baş Komandanlığının nümayəndə heyətinin rəhbəri polkovnik İbrahim Enver Sunqur söyləmişdir***



İyunun 10-da Türkiyə Respublikası Jandarm Baş Komandanlığına mənsub nümayəndə heyəti Daxili Qoşunlarda səfərdə olmuşdur.

Polkovnik İbrahim Enver Sunqurun rəhbərlik etdiyi nümayəndə heyəti (polkovnik Ünsal Bulut, polkovnik Şəmsiddin Çetin, polkovnik Serdar Güngör, polkovnik Ali Türk) səfərin birinci günü Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsini yad etmiş, "Əbədi məşəl" kompleksi önünə gül dəstələri qoymuşlar.

Sonra torpaqlarımızın azadlığı uğrunda Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının "Qardaşlıq məzarı" önünə gül dəstələri düzülmüş, türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksi də ziyarət olunmuşdur.

Həmin gün Daxili Qoşunların Baş İdarəsində türkiyəli zabitləri Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Şirin Xəlilov qəbul etmişdir.

Nümayəndə heyətini səmimi salamlayan general-mayor Ş.Xəlilov DİN-in Daxili Qoşunlar ilə Jandarm Baş Komandanlığı arasında günü-gündən inkişaf edən əməkdaşlıq münasibətlərindən danışaraq, bu günədək yüzlərlə hərbi qulluqçunun Jandarm Baş Komandanlığının təlim-tədris mərkəzlərində müxtəlif təkmilləşmə kursları keçdiklərini bildirmişdir.

davamı səh. 2-də

## MİNNƏTDARLIQ

**Azərbaycan Respublikasının**
**Daxili İşlər Naziri,**
**general-polkovnik Ramil Usubova**

***Hörmətli cənab nazir!***

*Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində oğlum Cəfərzadə Nicat Müşviq oğlu siravi əsgər kimi xidmətdədir. Hər dəfə oğlumu görmək üçün hərbi hissəyə gedəndə çox yüksək səviyyədə qarşılanıram. Orada övladlarımız üçün elə şərait yaradılıb ki, bir valideyn kimi məni çox sevindirir. Əsgərlərin keyfiyyətli ərzaqlarla qidalanması, təmiz, səliqəli geyimlərlə təminatı, hərbi qulluqçular arasında qarşılıqlı mehriban münasibətlərin olması hərbi hissədə son dərəcə nizam-intizamın mövcudluğundan xəbər verir.*

*Övladlarımız üçün yaradılmış hərtərəfli şəraitə, şəxsi heyətə göstərilən yüksək diqqət və qayğıya görə bir əsgər anası kimi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, sizə və tabeliyinizdə olan komandir heyətinə dərin minnətdarlığımı bildirirəm.*

**Hörmətlə,**
**Lənkəran rayonu**
**Ləj kəndinin sakini**
**Cəfərova Səbinə Mirzalı qızı,**
**əsgər anası**

2_Layout 1 27.06.2014 13:49 Page 1



# "ŞƏXSİ HEYƏTİN YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİK OLMASI SON İLLƏRDƏ DAXİLİ QOŞUNLARDA HƏYATA KEÇİRİLƏN SÜRƏTLİ İNKİŞAFIN MƏNTİQİ NƏTİCƏSİDİR"

***Bu fikirləri Daxili Qoşunlarda səfərdə olmuş Türkiyə Jandarm Baş Komandanlığının nümayəndə heyətinin rəhbəri polkovnik İbrahim Enver Sunqur söyləmişdir***

əvvəli səh. 1-də

General-mayor Ş.Xəlilov Daxili Qoşunlar və Jandarm təşkilat arasında daim genişlənməkdə olan əlaqələrin iki qardaş ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etməsinə böyük töhfələr verdiyini qeyd etmişdir.

Polkovnik İ.E.Sunqur səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirmiş, Azərbaycan Respublikasına səfərdən məmnun olduqlarını diqqətə çatdırmışdır. Hörmətli qonaq iki qurum arasında əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsindən məmnunluğunu ifadə etmişdir.



Sonra Daxili Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, təlim-tədrisin, təchizatın vəziyyəti və beynəlxalq əlaqələri barədə geniş məzmunlu brifinq verilmişdir.

Görüşün sonunda qonaqlara hədiyyələr təqdim edilmiş və xatirə şəkli çəkdirilmişdir.

Qeyd edək ki, nümayəndə heyəti 3 günlük səfər çərçivəsində Daxili Qoşunların Ali Hərbi Məktəbinə və bir sıra hərbi hissələrinə baş çəkmiş, xidmət sahələrilə tanış olmuş, xüsusi-taktiki təlimləri izləmişdir. Polkovnik İ.E.Sunqur şəxsi heyətin yüksək döyüş hazırlığına malik olmasını son illərdə Daxili Qoşunlarda həyata keçirilən sürətli inkişafın məntiqi nəticəsi kimi dəyərləndirmişdir.

"Əsgər"





# İCTİMAİ ASAYİŞİN TƏMİN EDİLMƏSİ YÜKSƏK SƏVİYYƏDƏ BAŞA ÇATDIRILMIŞDIR

**İyunun 13-də Milli Gimnastika Arenasında start götürmüş Bədii Gimnastika üzrə Avropa çempionatına iyunun 15-də yekun vurulmuşdur. Tədbirin keçirildiyi arenanın istər daxilində, istərsə də bayır ətrafında ictimai asayişin təmini polis orqanlarının əməkdaşları ilə yanaşı Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən yüksək səviyyədə həyata keçirilmişdir.**

Bütün bunlar tədbirin gedişi zamanı yüksək nizam-intizam nümayiş etdirən şəxsi heyətin peşəkarlığının nəticəsidir.

Qeyd edək ki, çempionatda iştirak edən gimnastlar üçün yaradılmış "Atletlər kəndi"nin də mühafizəsi Daxili Qoşunlara həvalə edilmişdir. Burada xidmət müvafiq qrafikə uyğun olaraq 24 saat ərzində təşkil edilmişdir. Xidmətin aparılmasına nəzarət etmək üçün Daxili Qoşunların Baş İdarəsinin məsul vəzifəli şəxsləri də cəlb edilmişlər.

Məhz polis orqanları ilə birgə asayişin təmin olunması üzrə mühafizəyə cəlb olunmuş şəxsi heyətin ayıq-sayıqlığı, vəzifə borclarına son dərəcə məsuliyyətlə yanaşması ictimai asayişin tələb olunan səviyyədə qorunub saxlanılmasına zəmin yaratmışdır.

**Mətbuat xidməti**

# MİLLİ QURTULUŞ GÜNÜ HƏRBİ HİSSƏLƏRDƏ DƏ QEYD OLUNMUŞDUR

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun təsdiq etdiyi müvafiq plana əsasən, qoşunların hərbi hissələrində 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş bayram tədbirləri keçirilmişdir.

Bu münasibətlə iyunun 13-də Daxili Qoşunların Baş İdarəsində zabit və gizirlərin iştirakı ilə təntənəli mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirov çıxış edərək Milli Qurtuluş Gününün tarixi əhəmiyyəti, Ümummilli Lider Heydər Əliyevin xalqımızın şanlı gələcəyi, dövlətimizin gücləndirilməsi və müstəqilliyimizin əbədiliyi naminə misilsiz xidmətləri barədə geniş məlumat vermişdir.

Daxili Qoşunların Bakıda və regionlarda yerləşən hərbi hissələrində də təntənəli mərasimlər təşkil olunmuşdur. Keçirilən tədbirlərə dəvət edilmiş ictimai xadimlər, tarixçilər, eləcə də qoşunların Veteranlar Şurasının üzvləri şəxsi heyət qarşısında Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda sabitliyin, əmin-amanlığın bərqərar olmasından, ölkə iqtisadiyyatında baş vermiş dinamik inkişafdan söz açmışlar.

Tədbirlər konsert proqramları ilə davam etdirilmişdir.

# "AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA GEDƏN MÜHARİBƏLƏR ZAMANI HƏRBİ HİSSƏLƏRİN GÖSTƏRDİKLƏRİ QƏHRƏMANLIQ NÜMUNƏLƏRİ"

***Ali Hərbi Məktəbdə təşkil olunmuş tədbir belə adlanırdı***



Azərbaycan Respublikası Müharibə Veteranları və Beynəlmiləlçi Hərbçilər İctimai Birliyinin (MVBHİB) təşəbbüsü ilə iyunun 10-da Daxili Qoşunların Ali Hərbi Məktəbində kursantlar və şəxsi heyət üçün "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən müharibə zamanı hərbi hissələrin göstərdikləri qəhrəmanlıq nümunələri" mövzusunda tədbir keçirilmişdir.

Ali Hərbi Məktəb rəisinin tərbiyə işləri üzrə müavini polkovnik Sahib Babayev çıxışı zamanı MVBHİB-in bu təşəbbüsünü alqışlayaraq, belə bir layihənin həyata keçirilməsinin kursantlar üçün son dərəcə əhəmiyyət kəsb etdiyini bildirmişdir. Qeyd etmişdir ki, gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması, onlarda qorxmazlığı, igidliyi, mətinliyi və ən nəhayətdə Vətən sevgisini formalaşdırmaq əsas vəzifələrimizdəndir. Polkovnik S.Babayev əlavə etmişdir ki, dövlət və dövlətçiliyimizin gücləndirilməsi naminə hərbi qulluqçular və gənclər arasında qəhrəmanlıq nümunələrinin təbliğinə böyük ehtiyac var.

Tarixi keçmişimizdə və müasir dövrümüzdəki döyüş əməliyyatlarının müqayisəli təhlilini aparan ictimai birliyin sədri polkovnik Əzizağa Qənizadə isə diqqətə çatdırmışdır ki, dövründən asılı olmayaraq baş vermiş hadisələr araşdırılmalı və qazanılan uğurlar, əldə olunan nailiyyətlər sistemli olaraq şəxsi heyətə çatdırılmalıdır. Qarabağ savaşında Azərbaycan əsgərinin yenilməz olduğunu vurğulayan natiq fikrini vətənpərvər ifadələrlə izah etdi: "Qarabağ savaşında Azərbaycan əsgəri uduzmadı, məğlub olan səriştəsiz rəhbərlərin yarıtmaz siyasəti idi. Bu bir faktdır ki, sağlam mənəvi-psixoloji keyfiyyətlərə malik Azərbaycan əsgəri yüksək döyüş hazırlığına malikdir. O zaman da belə idi, bu gün də belədir".

Sonra ictimai birliyin digər üzvləri tərəfindən hərbi vətənpərvərlik mövzusunda mühazirələr oxunmuş və torpaqlarımızın azadlığı uğrunda həyata keçirilən əməliyyatları əks etdirən film nümayiş olunmuşdur.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə reallaşan bu layihə Daxili İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin ali təhsil müəssisələrində də həyata keçirilmişdir.

"Əsgər"

# DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİ MİLLİ QƏHRƏMAN MÜBARİZ İBRAHİMOVUN MƏZARINI ZİYARƏT ETMİŞDİR



**Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov 2010-cu il iyunun 18-də torpaqlarımızı erməni qəsbkarlarından azad etmək uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlmişdir. Bu münasibətlə DİN-in Daxili Qoşunlarının şəxsi heyəti iyunun 18-də II Fəxri Xiyabanda Milli Qəhrəmanın qəbrini ziyarət etmiş, məzarı üstünə gül dəstələri qoymuşdur.**

Mübariz İbrahimov 2005-2007-ci illərdə müddətli həqiqi hərbi xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçmiş, "çavuş" hərbi rütbəsinədək yüksəlmişdir.

Daxili Qoşunlarda xidmət etdiyi müddətdə o, Vətənə layiqli əsl hərbçi kimi formalaşmışdır. Müddətli həqiqi hərbi xidmətini başa vuran Mübariz bir müddət mülki işlərdə çalışdıqdan sonra yenidən ordu sıralarına qayıdır. 2009-cu ilin avqust ayında "gizir" hərbi rütbəsində Müdafiə Nazirliyinin cəbhə bölgəsində yerləşən hərbi hissələrindən birində xidmətə başlayır.

2010-cu ilin aprel-iyul aylarında taqım komandirinin müavini vəzifəsində xidmət edir. Bu müddət ərzində "şəhid olanadək şərəfsizlərin üzərinə yerimək" arzusu ilə yaşayan Mübariz hər an düşməni məhv etmək istəyi ilə alışıb-yanırdı.

2010-cu il iyunun 18-dən 19-na keçən gecə təkbaşına təmas xəttindəki bir kilometrlik minalanmış sahəni keçərək Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini məhv edir. Bundan sonra düşmənin atəşini özünə qarşı yönəldərək 5 saat təkbətək döyüşür...

Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur. Mübariz bir gecədə xalqının qəhrəmanına çevrildi. Adı Azərbaycanın qəhrəmanlıq tarixinə əbədi yazıldı.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2010-cu il tarixli sərəncamına əsasən, Mübariz Ağakərim oğlu İbrahimova Azərbaycanın ərazi bütövlüyünün qorunmasında müstəsna xidmətlərinə görə Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra) adı verilib.

Xatırladaq ki, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub.

Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətlər göstərmiş şəhid Mübariz İbrahimovun əziz xatirəsi heç vaxt unudulmayacaqdır.

# AZƏRBAYCAN ƏHALİSİNİN SAYI AÇIQLANDI

**2014-cü il mayın 1-nə olan məlumata görə, Azərbaycanda əhalinin sayı 9 milyon 511,1 min nəfərə çatıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əhali sıxlığı bir kvadrat kilometrə 110 nəfərdir. Əhalinin 53,2 faizi şəhərlərdə, 46,8 faizi kəndlərdə yaşayır.

Yanvar-aprel aylarında ölkədə 53,6 min uşaq doğulmuşdur. Onların 53,6 faizi oğlanlar, 46,4 faizi qızlardır.

Həmin müddətdə 19,9 min ölüm halı qeydə alınıb.

Hesabat dövründə 24,8 min nikah və 3,9 min boşanma baş verib. Hər min nəfərə düşən nikah və boşanmaların sayı ötən ilin eyni dövrü ilə müqayisədə sabit qalıb.

# BAŞ DÖVLƏT YOL POLİSİ İDARƏSİNDƏ "QAYNAR XƏTT" XİDMƏTİ YARADILMIŞDIR

***Qanunsuz hərəkətlər barədə "102" xidməti ilə yanaşı, "902" telefon nömrəsinə də məlumat vermək mümkün olacaq***

**İnsan hüquq və azadlıqlarının qorunması, korrupsiyaya qarşı mübarizə sahəsində respublikanın daxili işlər orqanları tərəfindən müvafiq dövlət proqramları əsasında həyata keçirilən sistemli tədbirlər hər bir şəxsin konstitusion hüquqlarının və qanuni mənafelərinin müdafiəsi işinin səmərəsini daha da artırmışdır.**

Müraciətlərin eyni zamanda elektron qaydada qəbulu, effektiv araşdırılması mexanizminin müəyyən edilməsi, birbaşa və səyyar qəbulların təşkili vətəndaş məmnunluğunun təmin edilməsində müsbət nəticələri şərtləndirmişdir.

Təkcə 2013-cü ildə Nazirliyin "102" Xidməti - Zəng Mərkəzi sisteminə 216 minə yaxın, o cümlədən 13 mindən çox cinayət xarakterli məlumat daxil olmuş, bu əsasda 300-dək ağır və xüsusilə ağır cinayət "isti izlərlə" açılmış, minlərlə şəxsə hüquqi yardım göstərilmiş, zəruri izahat verilmişdir. Həmçinin, polis əməkdaşları tərəfindən qanunçuluğun pozulması, vəzifə səlahiyyətlərinin lazımi qaydada icra edilməməsi barədə bütün şikayətlər operativ və obyektiv araşdırılmış, adekvat intizam tədbirləri görülmüşdür.

Diqqətinizə çatdırırıq ki, müvafiq sahədə fəaliyyətin davamı olaraq Baş Dövlət Yol Polisi İdarəsində də şikayətlərin qəbulunu həyata keçirən "Qaynar xətt" xidməti yaradılmışdır. Bununla əlaqədar həmin qurumun əməkdaşlarının qanunsuz hərəkətləri barədə "102" xidməti ilə yanaşı, "902" telefon nömrəsinə də məlumat verə bilərsiniz.

Hər bir müraciət üzrə dərhal və qısa müddətdə qanunauyğun tədbirlərin görülməsi, qarşılaşdığınız və ya şahidi olduğunuz neqativ halların hərtərəfli və obyektiv araşdırılması təmin ediləcəkdir.

Qanunçuluğun qorunması işinə verəcəyiniz töhfələrə görə əvvəlcədən təşəkkür edirik.

**Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti**

# BÜTÜN TƏDBİRLƏR NƏZARƏT ALTINDA HƏYATA KEÇİRİLİR

***Davamlı olaraq aparılan abadlıq-quruculuq işləri, həmçinin xidməti-döyüş fəaliyyəti barədə material hazırlamaq məqsədilə 16075 saylı hərbi hissədə oldum.***

***Digər hərbi hissələrimizdə olduğu kimi, burada da xidmətin təşkilinə müasir tələblərə cavab verən texnologiyalar vasitəsilə nəzarət edilir.***

Rabitə və AİS xidmətinin rəisi leytenant Sürac Məmmədov hərbi hissənin ərazisində, anbarlarda, postlarda, bölmələrin silah saxlama otaqlarında quraşdırılmış nəzarət kameraları barədə danışdı. Daxili Qoşunların Baş İdarəsində, hərbi hissə komandirinin xidməti otağında, eyni zamanda növbətçi hissədə quraşdırılmış monitorlar vasitəsilə əraziyə tam nəzarət edilir. Bu, eyni zamanda hərbi qulluqçuların fəaliyyətini də nəzarətdə saxlamağa imkan yaradır. Nəzarət kameralarının, habelə siqnalizasiya vasitələrinin texniki vəziyyəti gündəlik olaraq rabitəçilər tərəfindən yoxlanılır, sazlığı nəzarətdə saxlanılır.

Hərbi hissədə diqqət yetirilən əsas tələblərdən biri də hərbi qulluqçuların sağlamlığıdır.

Müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsində olarkən həkim-stomotoloq gizir Hənifə Abdullayeva diş ağrısı ilə məntəqəyə müraciət etmiş müddətdən artıq xidmət edən hərbi xidmət hərbi qulluqçusu çavuş Elvin Feyziyevi müayinə edirdi. Müayinə zamanı dişin ekstripasiya (çəkilməsi) olunması müəyyən edildi. Keyləşdirmə aparıldıqdan sonra əməliyyat davam etdirildi.

Palatada stasionar müalicədə olan əsgərlərə nəzarət edən növbətçi həkim-feldşer gizir Sveta Quliyeva (həmin gün üçün təyin olunmuş növbətçi həkim) xəstələrin arterial təzyiqlərini yoxlayırdı. Gizir S.Quliyeva eyni zamanda gün ərzində bir neçə dəfə termometriya işlərinin aparıldığını söylədi. Bundan əlavə, o, hər səhər ehtiyacı olan xəstələrin sarğılarının yeniləndiyini dedi.

Şəxsi heyətin sağlamlıq durumunu şərtləndirən əsas amillərdən biri də keyfiyyətli qidalanmadır. Əsgər yeməkxanasında hərbi qulluqçuların qidalanması üçün hər cür şərait yaradılmışdır. Nahar yeməyinə hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini mayor Rafiq Abbasov şəxsən nəzarət edirdi. Qida rasionunun əsasən milli mətbəxə məxsus olduğunu deyən komandir müavini hər bir hərbi qulluqçunun Nazirlər Kabinetinin müvafiq qərarında göstərilmiş normalara uyğun qidalandığını bildirdi. Qeyd etdi ki, yeməklərin keyfiyyətlə hazırlanmasına xüsusi önəm verilir. Bu məqsədlə, əsgər aşpazlarla yanaşı, qadın mülkü işçilərin əməyindən də istifadə olunur. İsti hava şəraitində şəxsi heyətin normal qidalanması üçün nahar fasiləsindən bir saat əvvəl yeməkxanada kondisionerlər işə salınır, temperatura nəzarət olunur.









Sonra hərbi hissənin avtoparkına üz tutduq. Orada gedən qızğın iş diqqətimi cəlb etdi. Məlum olduğu kimi, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, qoşunlar üzrə avtomobil və zirehli texnikalara illik texniki baxış keçirilir. Elə bu səbəbdən də şəxsi heyət illik texniki baxışa hazırlıq tədbirləri görürdü. Bu barədə ətraflı məlumatı Avtomobil və zirehli texnika xidmətinin rəisi kapitan Soltan Ağacamalov verdi. Təlimata əsasən, yay istismar dövrünə keçidlə əlaqədar mövcud olan nəqliyyat vasitələrinə mövsümi texniki xidmət göstərilir. Parkların hazırlığı, park avadanlıqları, su-yağ qızdırıcıları, akkumlyatorlar və digər təmir otaqları yoxlanılır. Mövsümi texniki xidmətdən əlavə kabina qızdırıcısı mühərriki işə salınmazdan əvvəl soyutma sistemindən ayrılmasını, ventelyator ötürücüsünün elektromaqnit muftaya birləşdirilməsini həyata keçirir. Hazırlıq zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur.

**Artıq saat 16:00-ı keçmişdi.**

Dəstənin şəxsi heyəti yeni inşa olunmuş və bütün lazımi avadanlıqlarla təchiz edilmiş idman zalında fiziki hazırlıq məşğələsi keçirdi. Daxili Qoşunlar Komandanının müvafiq əmrinə və həftəlik təlim proqramına əsasən, açıq havada nəzərdə tutulmuş idman tədbirləri temperaturun normadan artıq olması ilə əlaqədar saat 16:00-dan 18:00-dək idman zalında keçirilir.

Bir sözlə, bütün tədbirlərə hərbi hissə komandanlığı tərəfindən nəzarət edilir. Bu da o deməkdir ki, hərbi hissədə nizam-intizam qaydalarına ciddi şəkildə riayət olunur, habelə döyüş qabiliyyətinin artırılması istiqamətində əməli tədbirlər görülür.

**baş leytenant T.Əlizadə**

İDMAN

# CÜ-DO ÜZRƏ DAXİLİ QOŞUNLARIN BİRİNCİLİYİ KEÇİRİLMİŞDİR

*Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, iyunun 21-dən 22-dək idmanın cü-do növü üzrə Daxili Qoşunların birinciliyi keçirilmişdir. Daxili İşlər Nazirliyinin "Dinamo" İdman Cəmiyyətində təşkil olunan turnirdə 12 komanda olmaqla 84 hərbi qulluqçu 7 çəki dərəcəsi üzrə öz qüvvəsini sınamışdır.*

Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olmuşdur:

**60 kiloqram çəki dərəcəsi üzrə:**
**I yer** - əsgər Şəhriyar Seyfəlili (25031 saylı hərbi hissə)
**II yer** - əsgər Kənan İbrahimli (17072 saylı hərbi hissə)
**III yer** - əsgər Vüqar Ömərov (17072 saylı hərbi hissə)



**66 kiloqram çəki dərəcəsi üzrə:**
**I yer** - əsgər Qardaş İslamov (16075 saylı hərbi hissə)
**II yer** - əsgər Orxan Məmmədxanlı (17074 saylı hərbi hissə)
**III yer** - əsgər Famil Vəliyev (25033 saylı hərbi hissə)

**73 kiloqram çəki dərəcəsi üzrə:**
**I yer** - əsgər Mixail Ananiyev (17072 saylı hərbi hissə)
**II yer** - baş leytenant Qasım Rəcəbov (67987 saylı hərbi hissə)
**III yer** - əsgər Etibar Nəsirov (12318 saylı hərbi hissə)

**81 kiloqram çəki dərəcəsi üzrə:**
**I yer** - əsgər Eldar Qasımov (67987 saylı hərbi hissə)
**II yer** - əsgər Həmid Səfərəliyev (16077 saylı hərbi hissə)
**III yer** - gizir Natiq Allahyarov (67987 saylı hərbi hissə)

**90 kiloqram çəki dərəcəsi üzrə:**
**I yer** - leytenant Seymur Rzayev (25031 saylı hərbi hissə)



**II yer** - baş çavuş Emin İsgəndərov (16073 saylı hərbi hissə)
**III yer** - əsgər Orxan Musayev (16077 saylı hərbi hissə)

**100 kiloqram çəki dərəcəsi üzrə:**
**I yer** - baş çavuş Vüqar İsmayılov (67987 saylı hərbi hissə)
**II yer** - gizir Zəmanət Həsənzadə (16075 saylı hərbi hissə)
**III yer** - kapitan Taleh Ağayev (99713 saylı hərbi hissə)

**+100 kiloqram çəki dərəcəsi üzrə:**
**I yer** - əsgər Araz Mehrəliyev (67987 saylı hərbi hissə)
**II yer** - əsgər Vüsal Quliyev (12318 saylı hərbi hissə)
**III yer** - baş çavuş Ramal Məmmədov (17072 saylı hərbi hissə)

Komanda birinciliyində əldə etdiyi nailiyyətlərə görə 67987 saylı hərbi hissə (25 xal) I, 25031 saylı hərbi hissə (14 xal) II, 17072 saylı hərbi hissə (12 xal) isə III yerə layiq görülmüşlər.

Aktivinə 1 xal yazan 25033 saylı hərbi hissə X yerdə, yarışı xalsız başa vuran 16076 saylı hərbi hissə və Ali Hərbi Məktəb isə cədvəlin sonuncu pilləsində qərarlaşmışlar.

**baş leytenant T.Əlizadə**

# KOMANDİR ƏSGƏRİN ÜRƏYİNƏ NECƏ YOL TAPA BİLƏR?

*Hərbi xidmətdə qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsində döyüş hazırlığı ilə yanaşı, mənəvi tərbiyə faktoru da böyük rol oynayır. Hər bir qalibiyyətin təməlində döyüşçünün və bütövlükdə şəxsi heyətin ruh yüksəkliyi, vətənpərvərlik əqidəsi, mətinliyi dayanır. Əsl döyüşçü keyfiyyətlərinin aşılanması hərbi xidmətin ilk günlərindən başlamalı və davamlı olmalıdır. Əlbəttə, tərbiyə etmək, ruh yüksəkliyinə nail olmaq və onu qoruyub saxlamaq, cəsarətli döyüşçü yetişdirmək komandirlərdən böyük zəhmət tələb edir. Bu baxımdan komandir nümunəsi bütün zamanlarda aktuallıq kəsb edən faktor olub.*

**Komandir nümunəsi nədir?**

Komandir şəxsiyyəti, biliyi, hərbi rəhbər bacarığı, peşəkarlığı və qorxmazlığı ilə örnək olmalıdır. Bu keyfiyyətlər onun nüfuzunu formalaşdırır və liderlik qabiliyyətini möhkəmləndirir. Komandirdə liderlik, təşkilatçılıq və idarəetmə qabiliyyəti yetərli səviyyədə olmadıqda, hər hansı bir ekstremal vəziyyət yaranarsa, bu boşluq mütləq özünü bütün kəskinliyi ilə göstərir. Beləliklə, tabelik ahəngi də pozulur və ağır nəticələr qaçılmaz olur. Komandirin ona verilən səlahiyyətlərə güvənib bununla kifayətlənməsi bir natamamlıq cəhətidir. O, ilk növbədə öz nüfuzuna, iradəsinə, söz və əməl düzrüstlüyünün kəsərliliyinə güvənməlidir. Tabelikdə olan şəxsi heyət komandirin nə dərəcədə diqqətli olmasına, onların ehtiyaclarına qayğı ilə yanaşmasına, tələblərində və davranışında ədalətə riayət etməsinə xüsusi fikir verir. Haqsızlıq edən, əsgərin qüruruna hörmət qoymayan komandir özü ilə tabeliyindəkilər arasında bir uçurum yaradır.

Elə komandirlər var ki, kobudluğundan qalmır. Bəziləri əsəblərinə hakim kəsilə bilmir. Şəxsi heyətlə işləyərkən insan faktoru bütün üsul və tədbirlərin mərkəzində dayanmalıdır. Hər bir əsgər bir ailənin övladıdır və onların taleyi komandirlərə etibar olunub. Etibar olunubsa, buna laqeyd qalmaq olmaz. Komandirlərin də övladları var və sabah onlar da hərbi xidmətə çağırılacaqlar. Ona görə də hər bir əsgərə ilk növbədə “o, xalqımın övladı, Vətən keşikçisi, gələcəkdə özünəməxsus ictimai mövqe tutacaq vətəndaşdır” nəzəri ilə baxılmalıdır.

Komandirlər tabeliyindəki şəxsi heyətə dərindən bələd olmalı, rəhbərlik etdiyi hərbi kollektivin mənəvi-psixoloji hazırlığına xələl gətirə biləcək kənar təsirləri önləməyi bacarmalıdırlar. Hər hansı bir məsələ ətrafında çaşqınlıq yarandıqda, yanlış təsəvvür, düzgün dərk etməmək kimi situasiyalarla üzləşdikdə komandir vəziyyətə öz məntiqi ilə aydınlıq gətirməli, təcrübədən və reallıqdan irəli gələn yanaşmanı ortaya qoymalıdır. Onun arqumentlərinin inandırıcı olması vacib şərtdir.

Komandirlər həvəsləndirmə tədbirlərini və eləcə də intizam cəzalarını tətbiq edərkən obyektivliyə əsaslanmalıdırlar. Təcrübə göstərir ki, layiq olmayan mükafatlandırıldıqda və intizam pozuntularını törədənlər cəzasız qaldıqda hərbi kollektivdə qeyri-sağlam ab-hava yaranır. Bəzən ayrı-ayrı komandirlər təşviqlərə statistik göstərici anlamı ilə yanaşır, yəni formalizmə yol verirlər. Cəzalandırma praktikasında da komandirlərin iş prinsipindən, subyektiv mülahizələrindən, səlahiyyət imkanları ilə tərbiyəçi funksiyalarını nə dərəcədə uzlaşdırmasından, hətta səriştəsizliyindən qaynaqlanan məqamlar olur. Belə ki, cəza növünün seçilməsində tələskənlik, komandirin cəzanın tərbiyəvi təsirindən çox, sərtləşdirilməsi barədə düşünməsi, bəzən eyni pozuntuya fərqli cəzaların tətbiqi və s. bu kimi məqamları nəzərdə tuturam. Komandirin məharəti tabeliyindəki şəxsi heyətin nizam-intizama şüurlu münasibət göstərməsinə nail olmasıdır.

Bu baxımdan komandirin tərbiyəçi rolu onun çoxşaxəli fəaliyyətinin əsas sütunlarından biridir. **Bəzi komadirlər söyləyirlər ki, əsgəri ailəsi, oxuduğu orta məktəb tərbiyə etməyibsə, biz nə edə bilərik?** Bəli, ailəni, orta məktəbi qınamaq olar, bu problem ictimaiyyəti də düşündürməlidir. Ancaq tərbiyə işi “gecdir, nəyisə dəyişmək mümkün deyil” kimi rəylərin doğurduğu düşüncə ilə aparıla bilməz. Ailə, məktəb tərbiyəsi zəif olmuş, qeyri-sağlam mühitin təsirinə məruz qalmış şəxsə az qala itirilmiş fərd kimi yanaşmaq olmaz. Komandir anlayışlı münasibəti, diqqət və qayğısı, xeyirxahlığı, hər bir əsgərin hərbi kollektivin gücünün bir həlqəsi olduğunu təlim-tərbiyə prosesində aşılaması, vətənpərvərliyi sayəsində əsgərin ürəyinə yol tapa bilər. O, şərəfini uca tutması, alicənablığı, ciddiliyi, qətiyyəti, qərarlılığı, öz peşəsinə bağlılığı ilə şəxsi heyətin rəğbətini qazana bilər. Belə bir rəğbətin qazanılması komandir üçün mühüm üstünlükdür və şəxsi heyətə güvənə bilməsinə tutarlı zəmindir.

Gənc komandirlər yaşlı, təcrübəli komandirlərdən gərəkli bilikləri əxz etməli, onların məsləhətlərinə əhəmiyyət verməli, çətinliyə düşəndə böyük komandir və ya rəisə müraciət etməkdən çəkinməməlidir. Bəzən “özüm bacararam” yanaşması ilk baxışdan komandirin öz bacarığına əminliyi kimi görünsə də, yersiz inadkarlığından, vəziyyəti düzgün dəyərləndirməməsindən, problemini, yanlışını, səhvini qapalı saxlamasından irəli gəlməsi də istisna deyil. İstənilən halda, təkəbbür, lovğalıq, saymamazlıq, özünə qapanma yolverilməzdir. Problem və səhvlərdən isə heç kəs sığortalanmayıb. Əslində, problemlərlə üzləşərək və səhvlərdən keçərək təcrübə qazanılır. Başlıcası odur ki, bunlardan lazımi nəticə çıxarasan.

**Daxili Qoşunların sıralarında komandir olmağın unikal cəhətləri var.** Nəzərə almaq lazımdır ki, Daxili Qoşunlar hərbi münaqişədə iştirak etmiş və ictimai asayişin mühafizəsi üzrə vəzifələri yerinə yetirən bir qoşun növüdür. Komandirlər hər iki istiqamət üzrə mövcud qiymətli təcrübədən bəhrələnməlidirlər. Onlar çoxfunksional fəaliyyətlərə hazırlığı ilə fərqlənməlidir. Bu çoxfunksionallıq komandirin hərtərəfli inkişafina da təkan vermiş olur. Gələcəkdə Daxili Qoşunların funksiyaları genişlənə bilər. Belə bir modelə keçilərsə, ola bilər ki, komandir heyəti əhali ilə də işləməli, qismən hərbi, qismən də hüquq-mühafizə fəaliyyətlərinin yerinə yetirilməsini nizamlamalı olacaq. Ancaq bu amillər komandir-şəxsi heyət münasibətlərində onun statusunu, hər zaman üçün vacib olan təlim-tərbiyə prosesində rolunu mahiyyət etibarilə dəyişməyəcək. Lakin təlim-tərbiyə prosesində təkmilləşmə həmişə davam etməlidir.

Daxili Qoşunların sıralarında döyüş yolu keçmiş, 20 il xidmət etmiş bir sabiq hərbi qulluqçu kimi vurğulamaq istəyirəm ki, dəyanətli, yurdsevər, intizamlı, dözümlü, tərbiyəli, döyüş qabiliyyətli əsgərlərimiz həmişə olub, bu gün də var. Bizim əsgərlər əxlaqı, valideyninə ehtiramı, zəhmətsevərliyi, təmkini, andına sadiqliyi ilə təqdirəlayiqdir. Dünyanın ayrı-ayrı ölkələrinin hərbi qüvvələrində itaətdən çıxan, qəddarlıq törədən, əxlaqı pozulmuş, mənəvi əqidədən uzaq, maddi marağı səbəbindən xidmət edən əsgərlər barədə oxuyuruq, eşidirik, müxtəlif informasiyalarla tanış oluruq. Belə tendensiyalar həmin ölkələrin perspektivi üçün yaxşı heç nə vəd etmir. Bəzən belə fikirlər səslənir ki, qloballaşan dünyada mənəvi əqidə amili getdikcə öz təsirini itirir. Milli-mənəvi dəyərlərini qoruyub saxlaya bilməyən ölkələr üçün bu təhlükə gözləniləndir. Qürurverici bir haldır ki, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunub saxlanmasına dövlət dəstəyi var. Milli-mənəvi dəyərlər əsrlərin sınağından çıxıb və xalqımız üçün əvəzsizdir. Xalqımızın təfəkküründə vətənpərvərlik məfhumu müqəddəs bir mənəvi dəyər kimi formalaşıb. İslam dinində də belə bir yanaşma var ki, Vətəni sevmək və qorumaq imandandır. Bu məqamları nəzərə alaraq mənəvi əqidənin hərbi qulluqçu üçün silah-sursat qədər, hətta ondan da artıq güc faktoru olduğunu qəbul etməliyik. Ona görə də komandirin əsgərin ürəyinə yol tapması tərbiyəçi kimi əsas hədəfidir.

**Yalçın Abbasov,**
**Daxili Qoşunların Veteranlar Şurasının katibi**

4_Layout 1 27.06.2014 13:55 Page 1



## BİZİM ŞÜAR:

## “MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!”

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## CÜMHURİYYƏT ORDUSUNUN ZİREHLİ AVTOMOBİLLƏRİ

*1919-1920-ci illərdə*

1919-cu ildə Azərbaycan ordusunun komandanlığı hərbi hissələrin texnika ilə təchiz edilməsinə böyük diqqət yetirirdi. Bolşeviklərlə döyüşlərdə qənimət kimi ələ keçirilmiş hərbi texnika dərhal təmir edilir və hissələrə verilirdi.

Nəhayət, 1919-cu il sentyabrın 14-də ordumuzun ilk zirehli avtomobillər taqımı yaradıldı.







1920-ci ilin əvvəllərində Azərbaycan ordusunun zirehli avtomobillər taqımında 3 zirehli avtomobil - pulemyotlu “Rüstəm” və “Perley”, toplu-pulemyotlu “Zöhrab” avtomobili vardı.

“Rüstəm” zirehli avtomobili 2 ədəd pulemyotla təchiz edilmişdir.

“Rüstəm” zirehli avtomobili Rusiyanın “Ostin-Putilovets”, “Zöhrab” zirehli avtomobili isə Rusiyanın “Qarford-putilovets” avtomobilləri əsasında hazırlanmışdı. “Zöhrab” avtomobili 1 ədəd 76,2 mm çaplı topla və 3 ədəd pulemyotla təchiz edilmişdir.

# ŞANLI HƏRB TARİXİMİZ

### Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordumuzun 21 generalı olmuşdur

*Azərbaycan xalqının Vətənin müdafiəsi uğrunda kifayət qədər qədim və zəngin qəhrəmanlıq nümunələri olmuşdur. Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Cavanşir, Babək, Uzun Həsən, Qara Yusif, Şah İsmayıl Xətai kimi hərbi sərkərdələrimiz tarixin müxtəlif dönəmlərində müstəqilliyimiz uğrunda mübarizələrdə xalq, vətən qarşısında böyük xidmətlər göstərmişlər.*

Şimali Azərbaycanın Çar Rusiyası tərkibində olduğu 90 il (1828-1917) ərzində xalqımız hərbi xidmətdən məhrum edilmiş, müsəlman azərbaycanlılar orduda xidmət əvəzinə müxtəlif cür vergilər ödəmişlər. Yalnız xalqın yüksək zadəgan və ziyalı zümrəsi içərisindən ayrı-ayrı şəxslər öz övladlarını Rusiyanın hərbi məktəblərinə göndərə bilmişlər. Həmin dövrdə hərbi təhsil almış azərbaycanlı zabit heyəti döyüş cəbhələrində yüksək sərkərdəlik nümunələri göstərmişlər.

**XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycan xalqını təmsil edən onlarla görkəmli hərbi sərkərdələr yetişmişlər. Bakıda Bakıxanovlar, Qazaxda Şıxlinskilər və Vəkilovlar, Qarabağda Cavanşirlər, Naxçıvanda Kəngərlilər, Gəncədə Cavadxanlar və digər bölgələrdə yaşayan nəsillərdən çıxmış generallar Azərbaycan xalqının şan-şöhrətini bütün dünyaya yaymışlar.**

Azərbaycanda milli ordunun yaradılması haqqında ilk təklif Rusiya çarizmi dağıldıqdan sonra, 1917-ci ilin mayında keçirilən Qafqaz Müsəlmanları Qurultayında verilmiş və bu qurultayda müsəlman alayları yaradılmasına başlamaq üçün xüsusi büronun təşkili haqda qərar qəbul edilmişdi. Bundan az sonra, həmin ilin oktyabrında Azərbaycan Türk Demokratik Federalistlər Partiyasının I qurultayında milli ordunun yaradılması geniş müzakirə edilmişdi.

1917-ci ilin noyabrında Zaqafqaziya komissarlığı Zaqafqaziyanın respublikaların da milli hərbi korpuslarının yaradılması haqqında qərar qəbul etdi. Azərbaycan korpusunu təşkil etmək general Əliağa Şıxlinskiyə tapşırılmışdı.

1918-ci ildə isə Çar Rusiyasının süqutundan sonra Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Cəmi 23 ay ömür sürməsinə baxmayaraq, Cümhuriyyət dövründə müstəqil dövlətin bütün atributları, o cümlədən milli ordu formalaşdırıldı. Həm ermənilərin, həm də bolşeviklərin işğalçılıq siyasətinə qarşı mübarizə aparmalı olan ADR hökuməti 1918-ci il iyunun 19-da gərgin vəziyyəti nəzərə alaraq bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. İyunun 26-da diviziya statusunda hərbi korpusun yaradılması barədə qərar qəbul olundu və Azərbaycanda milli ordunun təməli qoyuldu. 1918-ci il avqustun 1-də isə Hərbi Nazirlik təsis edildi. General Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski isə nazir müavini təyin edildilər.



Azərbaycan Ordusu 1918-ci ildə...



**Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1919-cu il dövlət büdcəsində hərbi xərclər 24 faiz təşkil edirdi. Həmin il 25 min nəfərlik milli ordu yaradılması nəzərdə tutulmuşdu.** Hərbi Nazir general S.Mehmandarov 1919-cu ilin aprelin 2-də Nazirlər Şurasına göndərdiyi məktubunda Azərbaycan xalqının şanlı hərb tarixinə malik olduğunu qeyd etmişdir. Göstərmişdir ki, şanlı qəhrəmanlıq tarixi ordumuzun milli vətənpərvərlik ruhuna təsir edən vacib amillərdən biridir.

1919-cu ilin sonlarında Azərbaycan ordusu iki piyada və bir süvari diviziyasından ibarət idi. Bundan əlavə, Gəncədə iki artilleriya batareyası və yüngül toplara malik xüsusi diviziya yaradılmışdı. Ordunun tərkibində həmin dövrdə üç zirehli qatar, 4 hərbi təyyarə, 6 zirehli avtomobil və s. var idi.

1920-ci ilin əvvəlində Azərbaycan ordusunun şəxsi heyətinin 40 min nəfərə çatdırılması və hərbi xidmətə 19-24 yaşlı gənclərin çağırılması nəzərdə tutulurdu. Ordunu gücləndirmək üçün 5 tank, 12 hidroplan, 6 aeroplan, 9 zirehli avtomobil və s. alınması planlaşdırılmışdı. Gəncədə bir hərbi zavod işləməyə başlamışdı.

**Azərbaycan ordusu xeyli möhkəmlənmiş və yüksək intizamlı ordu yaradılmışdı. 1919-cu ilin sentyabrında Bakıda olmuş ingilis hərbi müxbiri Skotland Liddel öz təəssüratlarında yazırdı:** *“Mənə deyirdilər ki, burada qarşılıqla rastlaşacağam, amma heç bir qarışıqlıq görmədim… yol boyu biz Azərbaycan ordusunun yüzlərlə cavan əsgəri ilə qarşılaşdıq, onlar iki il əvvəl gördüyüm əsgərlər deyildirlər. Hətta bir ay əvvəlkilərə belə oxşamırdılar. Azərbaycan ordusu sürətlə təşkil olundu, sürətlə də lazımi şəklə düşdü. Azərbaycan dərk etdi ki, intizamsız ordu sadəcə olaraq yaşaya bilməz. Azərbaycanda dəmir intizam hökm sürür, elə bir intizam ki, Rusiyada belə yoxdur”.*

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) Azərbaycanın 21 döyüş generalı (Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Xosrov bəy Sultanov, İbrahim ağa Vəkilov, İbrahim ağa Usubov, Hüseynxan Naxçıvanski, Mirkazımxan Talışxanov, Firudin bəy Vəzirov, Qalib bəy Vəkilov, Daniyal bəy Həlləcov, Əliyar bəy Haşımbəyov, Süleyman bəy Əfəndiyev, Teymur bəy Novruzov, Əmir Kazım Mirzə Qacar, Məhəmməd Mirzə Qacar, Əmənulla Mirzə Qacar, Feyzulla Mirzə Qacar, Cavad bəy Şıxlinsi, Məmməd Sadıq bəy Ağabəyzadə, Məmmədbəy Sulkeviç, Behbud Cavanşir) olmuşdur.**

Rəsmi araşdırmalar göstərir ki, 1920-ci ilin bolşevik-daşnak terroru nəticəsində Azərbaycan Milli Ordusuna xidmət edən 12 “general”, 27 “polkovnik” və “podpolkovnik”, 46 “kapitan” və “ştabs kapitan”, “poruçik” və “podporuçik”, 148 “praporşik” və “odpraporşik”, 266 digər rütbəli hərbi qulluqçu məhv edilmişdir.

Azərbaycan Respublikasının Sovet Sosialist Respublikası İttifaqı (SSRİ) tərkibində olduğu 1923-cü il yanvarın 1-dən sonrakı ilk 17 ildə (yəni Böyük Vətən müharibəsinin başlanmasına qədərki dövrdə) respublika vətəndaşları Sovet Ordusu tərkibində ümumi əsgəri mükəlləfiyyətə cəlb edilməklə yanaşı, Azərbaycanda bir milli atıcı diviziya da var idi. Həmin dağ-atıcı diviziyası 1920-ci ilin 30 oktyabrında təşkil edilmişdi və 1938-ci ilə qədər mövcud olmuşdur. 1924-1930-cu illərdə diviziyanın komandiri Cəmşid Naxçıvanski (1895-1938) olmuşdur. Sovet Ordusunun təşkili ərazi sistemindən sırf kadr sisteminə keçirildikdə (1938) həmin diviziya 77-ci diviziya adı ilə Zaqafqaziya hərbi dairəsi (1935-ci ildə yaradılmışdır) ordusu tərkibinə daxil edilmişdi.

Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyinin bərpasından sonra, 1991-ci il sentyabrında Ali Sovetin qərarı ilə Müdafiə Nazirliyi, oktyabrın 9-da isə Azərbaycan Silahlı Qüvvələrinin yaradılması barədə qərar qəbul edildi. Azərbaycan Respublikası prezidentinin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun tarixi “Silahlı Qüvvələr günü” elan edilmişdir.

**Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu hazırda Azərbaycan dövlətçiliyini, ərazi bütövlüyünü qorumaqla, regionda böyük nüfuza sahibdir.**

**Bu gün Cənubi Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Respublikasının Silahlı Qüvvələri dövlət müstəqilliyimizin əsas qarantıdır. Respublika Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin sözlərilə desək, ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir!!!**

# İLLİK TEXNİKİ BAXIŞIN NƏTİCƏLƏRİ MƏLUM OLDU

### *Birinciliyi 16077 saylı hərbi hissə qazandı*

Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planına əsasən silah-sursata, artilleriya qurğularına, mərmilərə, optik nişangahlara, eləcə də xüsusi müdafiə vasitələrinə illik texniki baxış keçirilmişdir. Texniki baxış zamanı silah-sursatın, artilleriya qurğularının, mərmilərin, optik nişangahların, xüsusi müdafiə vasitələrinin texniki vəziyyəti, qorunub saxlanılması və istismar qaydalarına riayət edilməsi yoxlanılmışdır.



Hərbi hissələrdə vəzifəli şəxslərin vəzifə borclarını icrasına, silahlara göstərdikləri texniki qulluğa görə 16077 saylı hərbi hissə, 17072 saylı hərbi hissə və 17074 saylı hərbi hissə ardıcıl olaraq ilk üçlükdə qərarlaşmışlar.

Nisbətən zəif nəticələr əldə edən 16076 saylı hərbi hissə, 67987 saylı hərbi hissə və 16075 saylı hərbi hissə isə sonuncu yerə layiq görülmüşlər.

**Mətbuat Xidməti**

## MİNALAR PARTLATMA ÜSULU İLƏ MƏHV EDİLMİŞDİR

İyunun 12-də Lənkəran RPŞ-dən daxil olmuş məlumata görə, rayonun Səpləkaran kənd orta məktəbinin ərazisində 3 ədəd tank əleyhinə döyüşə yararlı mina tapılmışdır. Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisinin göstərişinə əsasən, 25033 saylı hərbi hissənin kəşfiyyat rəisi mayor Ə.Əsgərov, Mühəndis və kimya xidmətinin rəisi VİE baş leytenant İ.Yoldaşovun rəhbərliyi ilə mühəndis-istehkam manqasının şəxsi heyəti “Həyacan” siqnalı ilə təyin olunmuş yerə göndərilmişdir.

Hadisə yerinə baxış zamanı 2 ədəd "TM-62 M" markalı tank əleyhinə mina təlim, 1 ədəd "TM-62 P" və 1 ədəd "MVÇ-62" döyüşə yararlı tank əleyhinə mina aşkar olunmuşdur. Minaların partlama təhlükəsi olduğu üçün təhlükəsiz əraziyə aparılaraq partlatma üsulu ilə məhv edilmişdir.

## Allah rəhmət eləsin

Ali Hərbi Məktəbin şəxsi heyəti polkovnik Rövşən Novruzova **qardaşının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti polkovnik-leytenant Hilal Nağıyeva **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ali Hərbi Məktəbin şəxsi heyəti baş gizir Ceyhun Hüseynova **qardaşı oğlunun** faciəli vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin şəxsi heyəti kiçik gizir Aqil Əmiraslanova **oğlunun** faciəli vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti baş çavuş Azər Yusifova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000